# İSLAM DİNİ İLƏ BAĞLI SUALLAR VƏ CAVABLAR

"Əgər bilmirsinizsə, bilənlərdən soruşun"
*"Nəhl" surəsi, 47*

Müəllif:
Səid Ələkbərov

# İSLAM DİNİ İLƏ BAĞLI SUALLAR VƏ CAVABLAR

*"Əgər bilmirsinizsə bilənlərdən soruşun"*
*Nəhl surəsi, 47*

**Müəllif:**
**Səid Ələkbərov**

**Kitabın adı:**
“İslam dini ilə bağlı suallar və cavablar”

**Müəllif:** Səid Ələkbərov

**Tərtibatçı:** Sabir Məmmədov

**Redaktor:** Xumar Ərşadlı

## ÖN SÖZ

Bismilləhir-Rahmənir-Rahim

Həmd yalnız aləmlərin Rəbbi olan Allaha məxsusdur. Mən şəhadət edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Muhəmməd Onun qulu və elçisidir. Allahın salavatı və salamı Muhəmmədə, ailəsinə, səhabələrinə və onların yolunu gözəl şəkildə təqib edənlərə olsun.

İslam Uca Allahın bəşəriyyətə bəxş etdiyi ən mükəmməl hidayət yoludur. Bu din insanın həm dünya həyatını gözəlləşdirmək, həm də axirət səadətinə nail olmasını təmin etmək üçün göndərilmişdir. İslam təkcə ibadət və əxlaq qaydalarından ibarət deyil, eyni zamanda insanın fərdi inkişafı, ailə dəyərləri, cəmiyyətin quruluşu və onların idarə olunması ilə bağlı ən ədalətli və müdrik qanunları özündə ehtiva edir.

Uca Allah Qurani-Kərimdə belə buyurur: **“Şübhəsiz ki, bu Quran ən doğru yola yönəldir və yaxşı işlər görən möminləri böyük bir mükafat ilə müjdələyir”** (“İsra” surəsi, 9)

İslamın gözəlliyi ondadır ki, o, insan həyatının bütün sahələrini nizamlayır. İnsan nə üçün yaradıldığını, dünyada nə etməli olduğunu və axirətdə onu nələrin gözlədiyini bu din vasitəsilə öyrənir. İslam yalnız fərdi xoşbəxt-

liyə deyil, cəmiyyətin rifahına da xidmət edir. Ədalət, mərhəmət, yardımlaşma və vicdan kimi dəyərlər İslamın cəmiyyətə bəxş etdiyi ən böyük nemətlərdəndir.

Hər bir insanın içində baş qaldıran suallar var: "Mən kiməm?", "Haradan gəlmişəm?", "Həyatımın məqsədi nədir?", "Nə üçün və necə ibadət etməliyəm?", "Ölüm və ondan sonrakı həyat necə olacaq?" – İslam dini bu və bu kimi bütün suallara aydın, məntiqli və qaneedici cavablar verir. Məhz bu səbəbdən İslam dinini öyrənmək hər insanın ən böyük ehtiyacıdır.

Peyğəmbərimiz ﷺ buyurmuşdur: **"Elm öyrənmək hər bir müsəlmana vacibdir"** (İbn Macə, 224).

Bu kitab İslam dini ilə bağlı ən vacib suallara cavab vermək məqsədi ilə hazırlanmışdır. Ümid edirik ki, bu bilgilər sizi haqq yoluna daha da yaxınlaşdıracaq, imanınızı gücləndirəcək və həyatınıza nur qatacaq.

Uca Allah bizləri elmə həris olanlardan və öyrəndiyi bilikləri əmələ çevirənlərdən etsin. Amin!

# ƏN VACİB İNANCLAR

**1. İnsanın bilməsi vacib olan dini əsaslar hansılardır?**

Qulun öz Rəbbini, dinini və peyğəmbəri Muhəmmədi ﷺ tanımasıdır.

**2. Rəbbin kimdir?**

Rəbbim məni və bütün aləmləri Öz lütfü ilə idarə edən Allahdır. O, mənim məbudumdur. Ondan başqa məbudum, ilahım yoxdur. Buna dəlil olaraq Uca Allah buyurur:

ٱلْحَمْدُ لِلَّهِ رَبِّ ٱلْعَٰلَمِينَ

**“Həmd aləmlərin Rəbbinə məxsusdur”**[1]

Allahdan başqa hər şey yaradılmışdır və mən də bu yaradılmışlardan biriyəm.

**3. Rəbb sözünün mənası nədir?**

Hər şeyin sahibi, ibadət olunan, idarə edən və ibadətə haqqı olandır.

**4. Rəbbini necə tanıyırsan?**

Nişanələri və yaratdıqları ilə.

---

[1] “Fatihə” surəsi, 2

**5. Rəbbinin nişanələri nələrdir?**

Gecə və gündüz, günəş və ay Onun nişanələrindəndir. Buna dəlil bu ayədir:

وَمِنْ ءَايَٰتِهِ ٱلَّيْلُ وَٱلنَّهَارُ وَٱلشَّمْسُ وَٱلْقَمَرُ ۚ لَا تَسْجُدُوا۟ لِلشَّمْسِ وَلَا لِلْقَمَرِ وَٱسْجُدُوا۟ لِلَّهِ ٱلَّذِى خَلَقَهُنَّ إِن كُنتُمْ إِيَّاهُ تَعْبُدُونَ

**"Gecə və gündüz, günəş və ay Onun dəlillərindəndir. Əgər siz Ona ibadət edirsinizsə, onda günəşə və aya səcdə etməyin, onları yaradan Allaha səcdə edin"**[2]

**6. Rəbbinin yaratdıqları nələrdir?**

Yeddi qat göy və arasındakılar, yeddi qat yer və arasındakılar, eləcə də bunların arasında olanların hamısı Allahın yaratdıqlarındandır. Necə ki, Uca Allah buyurur:

إِنَّ رَبَّكُمُ ٱللَّهُ ٱلَّذِى خَلَقَ ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضَ فِى سِتَّةِ أَيَّامٍ ثُمَّ ٱسْتَوَىٰ عَلَى ٱلْعَرْشِ يُغْشِى ٱلَّيْلَ ٱلنَّهَارَ يَطْلُبُهُۥ حَثِيثًا وَٱلشَّمْسَ وَٱلْقَمَرَ وَٱلنُّجُومَ مُسَخَّرَٰتٍۭ بِأَمْرِهِۦٓ ۗ أَلَا لَهُ ٱلْخَلْقُ وَٱلْأَمْرُ ۗ تَبَارَكَ ٱللَّهُ رَبُّ ٱلْعَٰلَمِينَ

**"Doğrudan da, Rəbbiniz göyləri və yeri altı gündə yaradan, sonra da Ərşə ucalan Allahdır. O, gündüzü sürətlə təqib edən gecə ilə örtüb bürüyür. Günəşi, ayı**

---

2 "Fussilət" surəsi, 37

**və ulduzları Öz əmrinə tabe edən də Odur. Əslində, yaratmaq da, əmr etmək də Ona məxsusdur. Aləmlərin Rəbbi Allah nə qədər xeyirxahdır"**[3]

**7. Dinin nədir?**

Dinim İslamdır. Buna Qurandan bir çox dəlil vardır:

إِنَّ ٱلدِّينَ عِندَ ٱللَّهِ ٱلْإِسْلَٰمُ ۗ

**"Həqiqətən, Allah yanında qəbul olunan din, İslamdır!"**[4]

وَمَن يَبْتَغِ غَيْرَ ٱلْإِسْلَٰمِ دِينًا فَلَن يُقْبَلَ مِنْهُ وَهُوَ فِى ٱلْءَاخِرَةِ مِنَ ٱلْخَٰسِرِينَ

**"İslamdan başqa bir din axtaran şəxsdən o din heç vaxt qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar"**[5]

ٱلْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِى وَرَضِيتُ لَكُمُ ٱلْإِسْلَٰمَ دِينًا ۚ

**"Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim"**[6]

---

3 "Əraf" surəsi, 54
4 "Ali-İmran" surəsi, 19
5 "Ali-İmran" surəsi, 85
6 "Maidə" surəsi, 3

**8. İslam dini nə üzərində qurulub?**

İslam beş rükn üzərində qurulub:

1. Allahdan başqa haqq məbud olmadığına və Muhəmmədin Onun qulu və elçisi olduğuna şəhadət gətirmək
2. Namaz qılmaq
3. Zəkat vermək
4. Ramazan ayının orucunu tutmaq
5. Gücü çatdığı təqdirdə Kəbə evini ziyarət (Həcc) etməkdir

**9. Dinin mərtəbələri hansılardır?**

Dinin üç mərtəbəsi var.

1. İslam
2. İman
3. Ehsan

**10. Dinin mərtəblərindən birincisi hansıdır?**

İslam.

**11. İslam nədir?**

İslam təslim olmaq və tək olan Allaha boyun əyməkdir.

**12. Dinin mərtəbələrindən ikincisi hansıdır?**

İman.

**13. İman nədir?**

Allaha, mələklərinə, kitablarına, peyğəmbərlərinə, axirət gününə, qədərin xeyrinə və şərinə iman gətirməkdir.

ءَامَنَ ٱلرَّسُولُ بِمَآ أُنزِلَ إِلَيْهِ مِن رَّبِّهِۦ وَٱلْمُؤْمِنُونَ ۚ كُلٌّ ءَامَنَ بِٱللَّهِ وَمَلَٰٓئِكَتِهِۦ وَكُتُبِهِۦ وَرُسُلِهِۦ

**"Peyğəmbər öz Rəbbindən ona nazil edilənə iman gətirdi, möminlər də iman gətirdilər. Hamısı Allaha, Onun mələklərinə, kitablarına və elçilərinə iman gətirdilər"**[7]

**14. İmanın neçə rüknü var?**

İmanın altı rüknü var:

1. Allaha iman
2. Mələklərinə iman
3. Kitablarına iman
4. Peyğəmbərlərinə iman
5. Axirət gününə (Cənnət və Cəhənnəmə) iman
6. Qədərin xeyrinə və şərinə iman

**15. İmanın neçə şöbəsi var?**

İmanın yetmişdən artıq şöbəsi var. Onun ən üstünü

[7] "Bəqərə" surəsi, 285

“Lə iləhə illəllah” kəlməsi, ən aşağı dərəcəsi isə əziyyət verən şeyləri yoldan kənarlaşdırmaqdır. Həya da imandan bir şöbədir[8].

**16. Dinin mərtəbələrindən üçüncüsü hansıdır?**

Ehsan.

**17. Ehsanın neçə rüknü var?**

Bir rüknü var.

**18. Ehsan nədir?**

Sanki Allahı görürsənmiş kimi ibadət etməkdir. Sən Onu görməsən də, şübhəsiz ki, O səni görür. Necə ki, Uca Allah buyurur:

إِنَّ ٱللَّهَ مَعَ ٱلَّذِينَ ٱتَّقَواْ وَّٱلَّذِينَ هُم مُّحْسِنُونَ

**“Həqiqətən də, Allah Ondan qorxanlar və yaxşı işlər görənlərlədir”**[9]

**19. “Allah” adının mənası nədir?**

Bütün yaratdıqlarının üzərində ilahlıq və ibadət olunma haqqına sahib olandır.

**20. Allah bizi nə üçün yaradıb?**

Yalnız Ona ibadət etmək üçün. Uca Allah buyurur:

وَمَا خَلَقْتُ ٱلْجِنَّ وَٱلْإِنسَ إِلَّا لِيَعْبُدُونِ

---

[8] Muslim, 35. Nəsai, 5005

[9] “Nəhl” surəsi, 128

**“Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım”**[10]

**21. Allaha ibadət etmək nədir?**

Allahı ibadətdə təkləşdirmək və Ona itaət etmək.

**22. Allahın ən ali əmri nədir?**

Allahı ibadətdə təkləşdirmək.

**23. Allahın ən böyük qadağası nədir?**

Ona şərik (ortaq) qoşmaq. Bu, Allahla bərabər başqasına (yaradılana) ibadət etmək və ya ibadətin növlərindən hər hansı birini başqasına yönəltməkdir.

**24. Allaha edilən ibadətin növləri hansılardır?**

Dua, kömək, imdad, qurban, nəzir, qorxu, ümid, təvəkkül, üz tutub yönəlmək, sevmək, çəkinmək, rəğbət etmək, ilahlaşdırmaq, rüku, səcdə, boyun əymək, zəlillik göstərmək və təzim etmək.

**25. Allahın bizə vacib etdiyi ilk əməl nədir?**

Allaha iman gətirmək və bütləri inkar etmək. Buna dəlil olaraq Uca Allah buyurur:

لَآ إِكْرَاهَ فِي ٱلدِّينِۖ قَد تَّبَيَّنَ ٱلرُّشْدُ مِنَ ٱلْغَيِّۚ فَمَن يَكْفُرْ بِٱلطَّٰغُوتِ وَيُؤْمِنۢ بِٱللَّهِ فَقَدِ ٱسْتَمْسَكَ بِٱلْعُرْوَةِ ٱلْوُثْقَىٰ لَا ٱنفِصَامَ لَهَاۗ وَٱللَّهُ سَمِيعٌ عَلِيمٌ

---

[10] “Zariyat” surəsi, 56

**“Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan aydın fərqlənir. Hər kəs tağutu (bütləşdiriləni) inkar edib Allaha iman gətirərsə, o, artıq qopmayan ən möhkəm bağdan yapışmış olar. Allah Eşidəndir, Biləndir”**[11]

**26. Allah insanları öldükdən sonra dirildəcəkmi? Buna dəlil nədir?**

Bəli. Dəlil olaraq Uca Allah buyurur:

مِنْهَا خَلَقْنَٰكُمْ وَفِيهَا نُعِيدُكُمْ وَمِنْهَا نُخْرِجُكُمْ تَارَةً أُخْرَىٰ

**“Biz sizi (ondan) torpaqdan yaratdıq. Sizi ora qaytaracaq və bir daha oradan (dirildib) çıxardacağıq”**[12]

قُلْ بَلَىٰ وَرَبِّى لَتُبْعَثُنَّ ثُمَّ لَتُنَبَّؤُنَّ بِمَا عَمِلْتُمْ ۚ وَذَٰلِكَ عَلَى ٱللَّهِ يَسِيرٌ

**“De: “Bəli, Rəbbimə and olsun ki, siz mütləq diriləcəksiniz. Sonra da etdiyiniz əməllər sizə xəbər veriləcəkdir. Bu, Allah üçün çox asandır!”**[13]

**27. İnsanlar ölüb yenidən dirildikdən sonra əməllərinə görə hesab olunacaq və mükafatlandırılacaqlarmı?**

---

[11] “Bəqərə” surəsi, 256
[12] “Ta-Ha” surəsi, 55
[13] “Təğabun” surəsi, 7

Bəli. Dəlil olaraq Uca Allah buyurur:

وَلِلَّهِ مَا فِى ٱلسَّمَٰوَٰتِ وَمَا فِى ٱلْأَرْضِ لِيَجْزِىَ ٱلَّذِينَ أَسَٰٓـُٔواْ بِمَا عَمِلُواْ وَيَجْزِىَ ٱلَّذِينَ أَحْسَنُواْ بِٱلْحُسْنَى

**"Göylərdə və yerdə nə varsa, Allahındır. O, pislik edənlərə əməllərinin cəzasını verəcək, yaxşılıq edənləri isə ən gözəl mükafatla (Cənnətlə) mükafatlandıracaq!"[14]**

**28. Elə bir qövm olubmu ki, Allah onlara peyğəmbər göndərməsin?**

Xeyr. Uca Allahın bu ayəsi buna dəlildir:

وَلَقَدْ بَعَثْنَا فِى كُلِّ أُمَّةٍ رَّسُولًا أَنِ ٱعْبُدُواْ ٱللَّهَ وَٱجْتَنِبُواْ ٱلطَّٰغُوتَ

**"Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan çəkinin"– deyə, peyğəmbər göndərdik!"[15]**

**29. Tövhid kəlməsi nədir və mənası nədir?**

لَا إِلَهَ إِلَّا الله ("Lə iləhə illəllah") kəlməsidir. Mənası: "Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur". Uca Allah buyurur:

وَقَضَىٰ رَبُّكَ أَلَّا تَعْبُدُوٓاْ إِلَّآ إِيَّاهُ

---

[14] "Nəcm" surəsi, 31

[15] "Nəhl" surəsi, 36

**“Rəbbin, Özündən başqasına əsla ibadət etməməyinizi buyurmuşdur”**[16]

“Əsla ibadət etməmək” – “İbadətə layiq haqq məbud yoxdur” mənasını verir. “Özündən başqası” isə – “Allahdan başqası” mənasındadır.

**30. Allaha ibadətdə isbat və isbatın əksi nədir?**

İsbat: Şəriki olmayan tək Allaha ibadət etməkdir. İsbatın əksi: Allahdan başqa ibadət olunanların hamısını inkar etməkdir.

**31. Allaha ibadətdə, isbat və isbatın əksinə dəlil nədir?**

Bu ayə isbatın əksi olan inkara dəlildir. Uca Allah buyurur:

وَإِذْ قَالَ إِبْرَٰهِيمُ لِأَبِيهِ وَقَوْمِهِۦٓ إِنَّنِى بَرَآءٌ مِّمَّا تَعْبُدُونَ

**“Bir zaman İbrahim atasına və qövmünə demişdi: Mən sizin ibadət etdiklərinizdən (bütlərdən) uzağam”**[17].

Bu ayə isə isbata dəlildir:

إِلَّا ٱلَّذِى فَطَرَنِى فَإِنَّهُۥ سَيَهْدِينِ

**“Yalnız məni yoxdan yaradan (Allahdan) başqa! Şübhəsiz ki, O məni doğru yola yönəldəcəkdir”**[18].

---

[16] “İsra” surəsi, 23
[17] “Zuxruf” surəsi, 26
[18] “Zuxruf” surəsi, 27

**32. Bizim üzərimizə düşən ən böyük vacib nədir?**

Tövhid. Çünki tövhid – Uca Allahı layiqincə təkləşdirməkdir.

**33. Tövhidin növləri hansılardır?**

1. Rübubiyyət (Rəblik) tövhidi
2. Üluhiyyət (İlahlıq) tövhidi
3. Əsma və sifət (Ad və sifətlər) tövhidi

**34. Rübubiyyət (Rəblik) tövhidi nədir?**

Rəbbin feilləri, əməlləridir. Yəni, həqiqi mənada iş, icra olunan əməl qəsd edilir. Məsələn, yaratmaq, ruzi vermək, yaşatmaq, öldürmək, yağış yağdırmaq, bitkiləri yetişdirmək və bütün aləmi idarə etmək.

**35. Üluhiyyət (İlahlıq) tövhidi nədir?**

Qulun bütün feillərini yalnız Allaha həsr etməsidir. Məsələn, dua etmək, qorxmaq, ümid etmək, təvəkkül etmək, tövbə etmək, istəmək, çəkinmək, nəzir etmək, imdad diləmək və digər ibadət növləri.

**36. Tövhidin müsəlmana faydası nədir?**

Axirətdə əbədi şəkildə əzabdan qurtulmaq, dünyada haqq din üzərində olmaq və günahların bağışlanması kimi faydaları vardır.

ٱلَّذِينَ ءَامَنُواْ وَلَمْ يَلْبِسُوٓاْ إِيمَٰنَهُم بِظُلْمٍ أُوْلَٰٓئِكَ لَهُمُ
ٱلْأَمْنُ وَهُم مُّهْتَدُونَ

**“İman gətirdikdən sonra imanlarına zülm qatışdırmayanları əmin-amanlıq gözləyir. Doğru yola yönəlmişlər də məhz onlardır”** [19].

**37. Allah qatında əməllərin qəbul olunmasının şərtləri nələrdir?**

Əməllərin qəbul olması üçün şərtlər bunlardır:

- Əməli yalnız Allaha aid edərək ixlasla etmək. Uca Allah buyurur:

فَٱدْعُوا۟ ٱللَّهَ مُخْلِصِينَ لَهُ ٱلدِّينَ وَلَوْ كَرِهَ ٱلْكَٰفِرُونَ

**“(Ey möminlər!) Kafirlərin xoşuna gəlməsə də, dini məhz Allaha aid edərək Ona (ixlasla) dua edin!”** [20]

- Əməli Peyğəmbərin ﷺ sünnəsinə (yoluna) müvafiq etmək. Uca Allah buyurur:

وَمَآ ءَاتَىٰكُمُ ٱلرَّسُولُ فَخُذُوهُ وَمَا نَهَىٰكُمْ عَنْهُ فَٱنتَهُوا۟ ۚ وَٱتَّقُوا۟ ٱللَّهَ ۖ إِنَّ ٱللَّهَ شَدِيدُ ٱلْعِقَابِ

**“Peyğəmbər sizə nə verirsə, onu götürün, nəyi də qadağan edirsə, ondan çəkinin. Allahdan qorxun. Həqiqətən, Allah şiddətli cəza verəndir”** [21]

**38. Müsəlman etiqadını haradan götürməlidir?**

Allahın Kitabından, Peyğəmbərin səhih (doğru) sünnəsindən və səhabələrin icmasından:

---

[19] “Ənam” surəsi, 82
[20] “Ğafir” surəsi, 14
[21] “Həşr” surəsi, 7

**“Kim mənim hidayətimə tabe olsa, o nə azacaq, nə də bədbəxt olacaq”**[22]

**“Kim Peyğəmbərə itaət edərsə, həqiqətən də, Allaha itaət etmiş olar”** [23]

**“İslamı ilk qəbul edən mühacirlər və ənsarlar və onlara gözəl şəkildə tabe olanlar var ha! Allah onlardan razıdır, onlar da Allahdan razıdır...”**[24]

### 39. Ən böyük günah nədir?

Allaha şərik (ortaq) qoşmaq. Uca Allah buyurur:

وَإِذْ قَالَ لُقْمَٰنُ لِٱبْنِهِۦ وَهُوَ يَعِظُهُۥ يَٰبُنَيَّ لَا تُشْرِكْ بِٱللَّهِۖ إِنَّ ٱلشِّرْكَ لَظُلْمٌ عَظِيمٌ

**“Bir zaman Loğman öz oğluna nəsihət edərək demişdi: “Oğlum! Allaha şərik qoşma. Həqiqətən, (Allaha) şərik qoşmaq böyük zülmdür!”**[25]

### 40. Allaha şərik qoşmaq necə olur?

Tövhidin əksini etməklə, yəni Allahdan başqa və ya Allahla bərabər başqa ilaha ibadət etməklə.

### 41. Allaha şərik qoşmağın günah olduğuna dəlil nədir?

Uca Allah buyurur:

---

[22] “Ta-Ha” surəsi, 123
[23] “Nisa” surəsi, 80
[24] “Tövbə” surəsi, 100
[25] “Loğman” surəsi, 13

ٱتَّخَذُوٓاْ أَحْبَارَهُمْ وَرُهْبَٰنَهُمْ أَرْبَابًا مِّن دُونِ ٱللَّهِ وَٱلْمَسِيحَ ٱبْنَ مَرْيَمَ وَمَآ أُمِرُوٓاْ إِلَّا لِيَعْبُدُوٓاْ إِلَٰهًا وَٰحِدًا ۖ لَّآ إِلَٰهَ إِلَّا هُوَ ۚ سُبْحَٰنَهُۥ عَمَّا يُشْرِكُونَ

**"Onlar Allahı qoyub baş din adamlarını, rahiblərini, və Məryəm oğlu İsanı rəbblər qəbul etdilər. Halbuki onlara ancaq tək olan İlaha ibadət etmək olunmuşdu. Ondan başqa məbud yoxdur. O, onların şərik qoşduqlarından uzaqdır"**[26]

وَمِنَ ٱلنَّاسِ مَن يَتَّخِذُ مِن دُونِ ٱللَّهِ أَندَادًا يُحِبُّونَهُمْ كَحُبِّ ٱللَّهِ

**"İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini Allaha şərik qoşub onları da Allahı sevdikləri kimi sevirlər"**[27]

**42. Allah qullarına namaz və orucdan əvvəl nəyi vacib etmişdir?**

Allahı hər bir şeydə təkləşdirməyi. İbdətin hər növündə, Rəbb olmasında və Allaha aid olan ad və sifətlərdə Onu təkləşdirməyi misal kimi göstərmək olar.

**43. Allahın namaz və orucdan əvvəl qullarına vacib etdiyi tövhid hansıdır?**

---

[26] "Tövbə" surəsi, 31

[27] "Bəqərə" surəsi, 265

İbadət tövhidi. Bu, heç bir şəriki olmayan tək Allahdan başqa heç kəsə dua etməməkdir. Uca Allah buyurur:

وَأَنَّ ٱلْمَسَٰجِدَ لِلَّهِ فَلَا تَدْعُواْ مَعَ ٱللَّهِ أَحَدًا

**"Şübhəsiz ki, məscidlər Allaha məxsusdur. Allahdan başqa heç kəsə dua etməyin!"**[28]

**44. Qədər nədir?**

Kainatda baş verən hadisələrdən öncə Allahın onları təqdir etməsi.

**45. Xeyir və şər ümumi olaraq Allahdandır, yoxsa yox?**

Xeyir də, şər də ümumi olaraq qədərdir. Əlinin (Allah ondan razı olsun) rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ buyurmuşdur:

*"Əməl edib çalışın. Çünki hər kəs nə üçün yaradılıbsa, o da onun üçün asanlaşdırılacaqdır. Xoşbəxt olan kimsələrə xoşbəxt kimsələrin əməllərini etmək asanlaşdırılacaqdır. Bədbəxt olan kimsələrə də, bədbəxt olan kimsələrin əməlini etmək asanlaşdırılacaqdır". Sonra bu ayələri oxudu:* ***"Kim (haqqını) verir və (Allahdan) qorxursa, və ən gözəl olanı (lə ilahə illəllahı) təsdiq edirsə, Biz onu ən asan olana nail edəcəyik. Kim də xəsislik edərək (Rəbbinə) ehtiyacı olmadığını güman edirsə və ən gözəl olanı (lə ilahə illəllahı) yalan hesab edirsə, Biz onun üstünə ən çətin olanı yükləyəcəyik"***[29].

---

[28] "Cinn" surəsi, 18

[29] Buxari, 4948-4949. Muslim, 2647

# PEYĞƏMBƏRİMİZ HAQQINDA

**1. Peyğəmbərin kimdir?**

Peyğəmbərim Allahın elçisi, Muhəmməddir ﷺ.

**2. Peyğəmbərimizin, atasının və babasının adı nədir və kimin zürriyyətindəndir?**

Adı Muhəmməd, atasının adı Abdullah, babasının adı isə Abdulmuttalibdir. İsmayıl peyğəmbərin zürriyyətindəndir.

**3. Muhəmməd peyğəmbər hansı ildə və hansı şəhərdə doğulmuşdur?**

Fil ilində (Miladi təqvimlə 571-ci ildə), Məkkə şəhərində doğulmuşdur.

**4. Peyğəmbərin ﷺ anasının adı nədir? Nə zaman və harada vəfat etmişdir?**

Anasının adı Vəhbin qızı Əminədir. Peyğəmbər 6 yaşında ikən anası vəfat etmişdir. Vəfat yeri Məkkə və Mədinə arasında yerləşən Əl-Əbva məntəqəsindədir.

**5. Peyğəmbərin ﷺ atası nə zaman vəfat etmişdir?**

Peyğəmbər hələ anasının bətnində ikən atası vəfat etmişdir.

**6. Peyğəmbərə ﷺ Muhəmməd adını kim qoymuşdur və onu kim himayəsinə götürmüşdür?**

Peyğəmbərə Muhəmməd adını babası Abdulmuttalib qoymuş və eyni zamanda onu öz himayəsinə götürmüşdür.

**7. Babası Abdulmuttalib vəfat etdikdə Muhəmmədin neçə yaşı var idi?**

Babası Abdulmattalib vəfat etdikdə onun 8 yaşı var idi.

**8. Muhəmmədin babası Abdulmuttalib vəfat etdikdən sonra onu kim himayəsinə götürmüşdür?**

Babası Abdulmuttalib vəfat etdikdən sonra onu əmisi Əbu Talib öz himayəsinə götürmüşdür.

**9. Muhəmmədə ﷺ peyğəmbərlik verilməzdən əvvəl Qureyş qəbiləsində hansı ləqəblə tanınırdı?**

Onların arasında "Əmin" ləqəbi ilə tanınırdı.

**10. Peyğəmbər ﷺ neçə yaşında ailə qurmuşdur?**

O, 25 yaşında ailə qurmuşdur.

**11. Peyğəmbərin ﷺ ilk ailə qurduğu qadın kim olmuşdur?**

Xuveylidin qızı Xədicə.

**12. Peyğəmbərin ﷺ neçə övladı olub və adları nədir?**

Yeddi övladı olub: Qasım, Abdullah, İbrahim, Zeynəb, Ruqiyyə, Fatimə və Ummu Gülsüm.

**13. Uca Allah Muhəmmədə ﷺ neçə yaşında peyğəmbərlik vermişdir?**

40 yaşında.

**14. O hansı ayələrlə nəbi (peyğəmbər) və hansı ayələrlə rəsul (elçi) olmuşdur?**

“Ələq” surəsinin ilk 5 ayəsi ilə ona peyğəmbərlik, “Muddəssir” surəsi ilə isə elçilik verilmişdir.

**15. Muhəmmədin ﷺ peyğəmbər olmasına dəlil nədir?**

Uca Allah buyurur:

مَّا كَانَ مُحَمَّدٌ أَبَآ أَحَدٍ مِّن رِّجَالِكُمْ وَلَٰكِن رَّسُولَ ٱللَّهِ وَخَاتَمَ ٱلنَّبِيِّـۧنَ

**“Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Elçisi və peyğəmbərlərin sonuncusudur”**[30]

**16. Muhəmmədin ﷺ Allahın elçisi olmasına dəlil nədir?**

Uca Allah buyurur:

وَمَا مُحَمَّدٌ إِلَّا رَسُولٌ قَدْ خَلَتْ مِن قَبْلِهِ ٱلرُّسُلُ

**“Muhəmməd ancaq bir elçidir. Ondan əvvəl də elçilər gəlib getmişlər”**[31]

---

[30] “Əhzab” surəsi, 40

[31] “Ali-İmran” surəsi, 144

**17. Muhəhmmədə ﷺ Peyğəmbərlik verildikdən sonra o, Məkkədə neçə il yaşamışdır?**

13 il.

**18. Peyğəmbər ﷺ Məkkədən hara hicrət etmişdir?**

Mədinə şəhərinə. Bundan sonra Mədinə "Peyğəmbər şəhəri" adlandırılmağa başlamışdır.

**19. Peyğəmbər ﷺ hicrətdən sonra Mədinədə neçə il yaşamışdır?**

10 il.

**20. Uca Allah Muhəmmədi ﷺ nə üçün göndərmişdir?**

Bütün insanları müjdələyən və xəbərdar edən, eləcə də, şəriki olmayan tək Allaha ibadət etməyi və özlərinə Allahdan başqa ilah götürməməyi bildirmək üçün göndərmişdir.

**21. Peyğəmbərin nə üçün göndərilməsinə dəlil nədir?**

Uca Allah buyurur:

وَسْئَلْ مَنْ أَرْسَلْنَا مِن قَبْلِكَ مِن رُّسُلِنَآ أَجَعَلْنَا مِن دُونِ ٱلرَّحْمَٰنِ ءَالِهَةً يُعْبَدُونَ

**"Səndən əvvəl göndərdiyimiz elçilərdən (ümmətlərinin davamçılarından) soruş; Biz Rəhman olan Allahdan başqa ibadət ediləsi ilahlarmı etdik?"**[32]

---

[32] "Zuxruf" surəsi, 45

وَمَآ أَرْسَلْنَا مِن قَبْلِكَ مِن رَّسُولٍ إِلَّا نُوحِىٓ إِلَيْهِ أَنَّهُۥ لَآ إِلَٰهَ إِلَّآ أَنَا۠ فَٱعْبُدُونِ

**“Səndən əvvəl elə bir elçi göndərmədik ki, ona: “Məndən başqa heç bir ilah yoxdur. Yalnız Mənə ibadət edin!” – deyə vəhy etməyək”**[33]

**22. Muhəmmədin ﷺ möcüzəsi nədir və buna dəlil nədir?**

Qurani-Kərim. Buna dəlil olaraq Uca Allah buyurur:

وَإِن كُنتُمْ فِى رَيْبٍ مِّمَّا نَزَّلْنَا عَلَىٰ عَبْدِنَا فَأْتُوا۟ بِسُورَةٍ مِّن مِّثْلِهِۦ وَٱدْعُوا۟ شُهَدَآءَكُم مِّن دُونِ ٱللَّهِ إِن كُنتُمْ صَٰدِقِينَ

**“Əgər qulumuza nazil etdiyimizə (Qurana) şübhə edirsinizsə, siz də ona bənzər bir surə gətirin və əgər doğru deyirsinizsə, onda Allahdan savayı (bütün) şahidlərinizi (köməyə) çağırın!”**[34]

قُل لَّئِنِ ٱجْتَمَعَتِ ٱلْإِنسُ وَٱلْجِنُّ عَلَىٰٓ أَن يَأْتُوا۟ بِمِثْلِ هَٰذَا ٱلْقُرْءَانِ لَا يَأْتُونَ بِمِثْلِهِۦ وَلَوْ كَانَ بَعْضُهُمْ لِبَعْضٍ ظَهِيرًا

**“De: “Əgər insanlar və cinlər bu Qurana bənzər bir şey gətirmək üçün bir yerə toplaşıb bir-birinə kömək etsələr belə, ona bənzərini gətirə bilməzlər”**[35]

---

33 “Ənbiya” surəsi, 25
34 “Bəqərə” surəsi, 23
35 “İsra” surəsi, 88

**23. Muhəmməd ﷺ sonuncu peyğəmbərdirmi? Buna dəlil nədir?**

Bəli. Uca Allah buyurur:

مَّا كَانَ مُحَمَّدٌ أَبَآ أَحَدٍ مِّن رِّجَالِكُمْ وَلَٰكِن رَّسُولَ ٱللَّهِ وَخَاتَمَ ٱلنَّبِيِّـۧنَ

**"Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Elçisi və peyğəmbərlərin sonuncusudur"**[36]

**24. Muhəmməddən ﷺ əvvəl peyğəmbərlər olubmu? Buna dəlil nədir?**

Bəli. Uca Allah buyurur:

وَمَا مُحَمَّدٌ إِلَّا رَسُولٌ قَدْ خَلَتْ مِن قَبْلِهِ ٱلرُّسُلُ

**"Muhəmməd ancaq bir elçidir. Ondan əvvəl də elçilər gəlib getmişlər"**[37]

**25. Peyğəmbər ﷺ nə zaman, harada və neçə yaşında vəfat edib?**

Hicrətdən 10 il sonra Mədinə şəhərində, 63 yaşında vəfat edib (Allahın ona, ailəsinə və əshabına salavatı və salamı olsun).

---

36 "Əhzab" surəsi, 40

37 "Ali-İmran" surəsi, 26

# FİQH BÖLÜMÜ

## DƏSTƏMAZ

### Dəstəmaz nədir?

Uca Allahın aşağıda qeyd edilən ayəsində bildirildiyi kimi – müəyyən əzaları su ilə təmizləməkdir. Uca Allah buyurur:

يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ إِذَا قُمۡتُمۡ إِلَى ٱلصَّلَوٰةِ فَٱغۡسِلُواْ وُجُوهَكُمۡ وَأَيۡدِيَكُمۡ إِلَى ٱلۡمَرَافِقِ وَٱمۡسَحُواْ بِرُءُوسِكُمۡ وَأَرۡجُلَكُمۡ إِلَى ٱلۡكَعۡبَيۡنِ

**“Ey iman gətirənlər! Namaza durarkən üzünüzü və dirsəklərə qədər əllərinizi yuyun, başınıza məsh çəkin və topuqlara qədər ayaqlarınızı yuyun...”**[38]

### 1. Dəstəmazın hökmü nədir və buna dəlil nədir?

Namaz qılan və təvaf edən üçün vacibdir. Buna dəlil isə Uca Allahın bu ayəsəidir:

[38] “Maidə” surəsi, 6

يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ إِذَا قُمْتُمْ إِلَى ٱلصَّلَوٰةِ فَٱغْسِلُواْ وُجُوهَكُمْ وَأَيْدِيَكُمْ إِلَى ٱلْمَرَافِقِ وَٱمْسَحُواْ بِرُءُوسِكُمْ وَأَرْجُلَكُمْ إِلَى ٱلْكَعْبَيْنِ

**"Ey iman gətirənlər! Namaza durarkən üzünüzü və dirsəklərə qədər əllərinizi yuyun, başınıza məsh çəkin və topuqlara qədər ayaqlarınızı yuyun..."**[39]

## 2. Dəstəmaz necə alınır?

1. Dəstəmaz almağa niyyət etmək[40]
2. "Bismilləh" demək
3. Əlləri üç dəfə yumaq
4. Ağıza və buruna üç dəfə su çəkib yumaq
5. Üzü üç dəfə yumaq
6. Əlləri dirsəklərlə birgə üç dəfə yumaq
7. Başa bir dəfə məsh çəkmək
8. Bir dəfə qulaqlara məsh çəkmək
9. Üç dəfə ayaqları topuqlarla birgə yumaq

## 3. Dəstəmazın vacibləri hansılardır?

1. Üzü yumaq (ağız və burunla birgə)
2. Əlləri dirsəklərlə birgə yumaq
3. Başa məsh çəkmək
4. Ayaqları topuqlarla birgə yumaq

---

[39] "Maidə" surəsi, 6

[40] Niyyətin yeri qəlbdir, dil ilə tələffüz edilmir.

**5. Dəstəmazın sünnələri hansılardır?**

1. Misvakdan[41] istifadə etmək
2. Başlayarkən “Bismilləh” demək
3. Əlləri üç dəfə yumaq
4. Üzü yumazdan əvvəl ağız və buruna su çəkib yumaq
5. Sıx saqqalı barmaqlarla ovuşdurmaq
6. Əl və ayaq barmaqlarının aralarını ovuşdurmaq
7. Sağdan başlamaq
8. Əzaları iki və üç dəfə yumaq
9. Dəstəmazdan sonra dua oxumaq
10. Suyu israf etməmək

**4. Dəstəmaz aldıqdan sonra hansı dua oxunur?**

*“Əşhədu ən lə iləhə illəllah, vəhdəhu ləə şərikə ləh və əşhədu ənnə Muhəmmədən abduhu və rasuuluh”*[42]

**5. Dəstəmazı nələr pozur?**

1. İnsanda ön və arxadan çıxan hər bir şey
2. Ağılın getməsi, yuxu, bayılmaq
3. Əli maneəsiz şəkildə cinsiyyət üzvünə (şəhvətlə) toxundurmaq
4. Dəvə əti yemək

**6. Xufların (dəridən hazırlanmış ayaq geyimi) və ya corabların üzərinə məsh etmək olarmı?**

---

[41] Ərak ağacının budaqlarından əldə edilən ağıztəmizləyici çubuq.

[42] Muslim, 234. “Şəhadət edirəm ki, Allahdan başqa haqq məbud yoxdur. O, təkdir, heç bir şəriki yoxdur. Şəhadət edirəm ki, Muhəmməd Onun qulu və elçisidir”.

Bəli, olar. Buna dəlil olaraq tabiindən olan Həmməm bin əl-Həris ən-Nəxəi deyib: “Mən Cərir bin Abdullahın təbii ehtiyacını ödədikdən sonra dəstəmaz aldığını gördüm. O, xuflarının üstünə məsh çəkdi, sonra qalxıb namaz qıldı. Ondan soruşulduqda dedi: “Mən peyğəmbərin bu cür etdiyini görmüşəm”[43].

Corabların üzərinə məsh etməyin icazəli olması barədə bir çox səhabədən rəvayət varid olmuşdur. Məşhur hədis alimi Əbu Davud bu barədə “Sünən” əsərində “Təharət kitabında” “Corablara məsh etmək fəslində” xəbər vermişdir.

## QÜSL

### 1. Qüsl nədir?

Cünub, heyz[44] və nifas kimi böyük hədəsdən[45] təmizlənmək üçün təmizlik növüdür.

### 2. Qüsl necə alınır?

1. Niyyəti dil ilə demədən qəlbdə etmək
2. “Bismilləh” demək
3. Kamil dəstəmaz almaq
4. Başı üç dəfə tam yumaq
5. Bədənin sağ və sol tərəfini üç dəfə yumaq

---

[43] Buxari, 387. Muslim, 272
[44] Aybaşı qanaxması
[45] İbadətə maneə yaradan böyük hallar (cünub, heyz və nifas)

## TƏYƏMMÜM

**1. Təyəmmüm nədir?**

Su olmadıqda və zəruri hal yarandıqda (xəstəlik kimi) dəstəmaz və qüslü əvəz edən torpaqla edilən vacib təmizlik növüdür.

**2. Təyəmmüm necə alınır?**

Dəstəmaz və ya qüsl almaq üçün təyəmmüm etməyə qəlbdə niyyət edilir. Sonra əllər açıq şəkildə əlin içi təmiz torpağa və ya divara sürtülür və ya toxundurulur. Daha sonra isə əlin içini üzə, sonra isə əllərin üstünə sürtməklə məsh çəkilir.

## NAMAZ

**1. Şəhadət kəlməsindən sonra ən üstün əməl hansıdır?**

Gündə 5 vaxt namaz qılmaq.

**2. Namaz nədir?**

Namaz – xüsusi sözlərdən və əməllərdən ibarət olan, təkbirlə başlayıb salamla bitən ibadət növüdür.

**3. Namaz niyə vacibdir?**

Bu suala Uca Allah Quranda belə cavab verir:

وَأَقِمِ ٱلصَّلَوٰةَۖ إِنَّ ٱلصَّلَوٰةَ تَنْهَىٰ عَنِ ٱلْفَحْشَآءِ وَٱلْمُنكَرِ

**“Namazı dosdoğru qıl. Həqiqətən namaz çirkin və pis işlərdən çəkindirir”** [46]

**4. Namazın hökmü nədir və buna dəlil nədir?**

Namaz qılmaq hər bir həddi-büluğa çatmış və ağıl sahibi olan müsəlmana vacibdir. Uca Allah buyurur:

وَأَقِيمُواْ ٱلصَّلَوٰةَ وَءَاتُواْ ٱلزَّكَوٰةَ

**“Namaz qılın və zəkat verin!”** [47]

3. **Namazın neçə şərti var?**

Namazın aşağıda qeyd edilən doqquz şərti var:

1. Müsəlman olmaq
2. Ağıl sahibi olmaq
3. Dərketmə, ayırdetmə yaşına çatmaq
4. Dəstəmazlı olmaq
5. Nəcasəti aradan qaldırmaq (paltar, bədən və namaz qılınan yerdən)
6. Övrət[48] yerlərini örtmək
7. Vaxtın daxil olması
8. Qibləyə yönəlmək
9. Niyyətli olmaq

---

46 “Ənkəbut” surəsi, 45
47 “Bəqərə” surəsi, 110
48 Bədənin diz ilə göbək arasında olan hissəsi

### 4. Namazın neçə rüknu (ərkanı) vardır?

Namazın aşağıda qeyd edilən on dörd rüknü var:

1. Ayaq üstə durmaq (qiyam)
2. Birinci təkbiri etmək
3. Fatihəni oxumaq
4. Rüku etmək
5. Rükudan qalxmaq
6. Yeddi əza üzərinə səcdə etmək
7. Səcdədən qalxmaq
8. İki səcdə arasında oturmaq
9. Bu rükunları rahat etmək (tələsməmək)
10. Tərtiblə etmək
11. Axırıncı təşəhhüdü[49] demək
12. Təşəhhüd üçün oturmaq
13. Peyğəmbərə ﷺ salavat demək
14. Salam vermək

### 5. Namazın vacibləri hansılardır?

Namazın aşağıda qeyd edilən səkkiz vacibi vardır:

1. Birinci təkbirdən başqa digər təkbirlər
2. Rükuda "Subhənə rabbiyəl-azim" demək
3. "SəmiAllahu limən həmidəh"[50] demək
4. "Rabbənə və ləkəl-həmd"[51] demək
5. Səcdədə "Subhənə Rabbiyəl-əalə" demək

---

[49] "Əttəhiyyətu" duasını oxumaq

[50] Rüküdan qalxan əsnada bu duanı demək

[51] Rükudan tam qalxdıqdan sonra bu duanı demək

6. İki səcdə arasında “Rabbiğfirli” demək
7. Birinci təşəhhüdü[52] demək
8. Təşəhhüd üçün oturmaq[53]

**6. Namazın sünnələri hansılardır?**

Namazın şərtləri, ərkanları və vaciblərindən əlavə sünnələri də var. Namazın sünnələri iki yerə bölünür.

1. Söz ilə olan sünnələr
2. Əməl ilə olan sünnələr

**7. Namazın söz ilə olan sünnələri hansılardır?**

1. İstiftəh[54], yəni, açılış duası
2. “Fatihə” surəsindən əvvəl Allaha sığınmaq[55] və “Bəsmələ”[56] demək
3. “Fatihə” surəsindən sonra “Amin!”[57] demək
4. “Fatihə” surəsindən sonra bir surə oxumaq, yaxud hər hansı bir surədən bir hissəni oxumaq
5. Səsli namazları səsli oxumaq[58]

---

[52] “Əttəhiyyətu” duasını oxumaq
[53] Birinci təşəhhüd üçün oturmaq
[54] Namaza başladıqda ilk oxunan dua
[55] Əuzu billəhi minəş-şeytanir-racim
[56] Bismilləhir-Rahmənir-Rahim
[57] Səsli namazda imam “Fatihə” surəsini səslə oxuyub qurtardıqdan sonra arxada namaz qılanların “Amin!” deməsi. Mənası – “Ey Rəbbim, qəbul et!” deməkdir.
[58] Sübh, məğrib və işa namazlarının ilk iki rükətini, Cümə, bayram, istisqa (yağış diləmək) və Küsuf (günəş və ya ay tutulması) namazlarını səsli qılmaq

6. Rükudan qalxdıqdan sonra "Rabbənə və ləkəl-həmd" duasına "Həmdən kəsiran tayyibən mubərakən fiih" artırıb deməkb[59]

7. Rükuda, səcdədə və iki səcdə arasında olan duanı bir dəfədən artıq demək

8. Axırıncı təşəhhüddən sonra və salamdan əvvəl dua etmək

**5. Namazın əməl ilə olan sünnələri hansılardır?**

1. İlk təkbir əsnasında, eləcə də rükuya gedərkən, rükudan qalxarkən və üçüncü rükətə qalxdıqda əlləri çiyin və ya qulaq istiqamətinə qaldırmaq[60]

2. Ayaq üstə ikən sağ əli sol əlin üzərinə qoyaraq sinədə bağlamaq

3. Qorxu halında qılınan namaz[61] istisna digər namazlarda səcdə yerinə baxmaq

4. Birinci rükəti uzatmaq, ikinci rükəti qısaltmaq

5. Rükuda əllərin barmaqlarını açıq halda dizlərin üzərinə qoymaq və beli düz tutmaq

6. Birinci təşəhhüddə və iki səcdə arasında sağ ayağın pəncəsini şaquli vəziyyətdə saxlayıb, sol ayağı isə büküb üstündə oturmaq. Üç və dörd rükətli namazlarda axırıncı təşəhhüddə təvərrük[62] oturuşuna oturmaq

---

[59] Bu yerdə bu haqda varid olan dualardan oxumaq

[60] Barmaqları birləşdirib əlləri qaldırmaq

[61] Qorxu halında, yaxud döyüş zamanı qılınan namaz

[62] Oturuşda sol ayağı sağ ayağın altından yan tərəf istiqamətində qoymaq

7. Təşəhhüddə əlləri budların üstünə qoymaq. Sol əlin barmaqlarını açıq şəkildə birləşdirərək qiblə istiqamətində qoymaq. Sağ əli isə yumruq şəklində bükmək, yalnız şəhadət barmağını duanın sonuna qədər düz saxlamaq və ya yavaşca hərəkət etdirmək

8. Səcdədə dirsəkləri bədənin yan tərəfindən, qarını budlardan və budları da ayaqlardan aralı tutmaq

## 6. Namazda bəyənilməyən əməllər hansılardır?

1. Gözləri yuxarı qaldırmaq
2. Zərurət olmadan sağa-sola baxmaq (qorxu halında edilməsi istisnadır)
3. Namazdan yayındıran şeylərə baxmaq
4. Ya bir, ya da iki əli belə qoymaq
5. Səcdədə dirsəkləri yerə söykəmək

## 7. Namazı nələr batil edir?

Namazı bunlar batil edir:

1. Dəstəmazın pozulması
2. Övrət yerinin açılması
3. Qiblə (Kəbə) istiqamətindən çevrilmək
4. Namazın ərkanlarını bilərək artırmaq, yaxud azaltmaq
5. Namazın ərkanlarının tərtibini bilərək pozmaq
6. Niyyəti pozmaq, yaxud namazdan çıxmağa niyyət etmək[63]

---

[63] Niyyət və onun davamlı olması namazın səhih olması üçün şərtdir.

7. Namazda bilərək danışmaq
8. Zərurət olmadan davamlı şəkildə boş hərəkətlər etmək
9. Gülmək (gülüş qəhqəhə həddinə çatar və yanındakı şəxs bunu eşidərsə)
10. Yemək və içmək

**8. Gün ərzində neçə vaxt namaz qılınmalıdır?**

Gün ərzində 5 vaxt namaz qılmaq fərzdir: Sübh, Zöhr, Əsr, Məğrib və İşa.

**9. Qadınlar ilə kişilərin namazı arasında fərq varmı?**

Xeyr, əsas qaydalar eynidir, sadəcə qadınlar şəriətə uyğun şəkildə hicablanaraq namaz qılmalıdırlar.

**10. Səfərdə namaz necə qılınır?**

Səfərdə namaz üçün bilməyimiz gərəkən iki məsələ var:

1. Namazlar qısaldılır, yəni dörd rükətli fərz namazları iki rükət qılınır.
2. Namazlar birləşdirilir, yəni Zöhr və Əsr namazları ya Zöhrün, ya da Əsrin vaxtında ardıcıl qılınır. Həmçinin Məğrib və İşa namazları ya Məğribin, ya da İşanın vaxtında ardıcıl qılınır.

**10. Uşaqlar nə vaxt namaza alışdırılmalıdır?**

Uşaqlar 7 yaşda ikən namaza alışdırılmalı, 10 yaşında isə namazı tam şəkildə qılmalıdırlar[64].

---

[64] Əbu Davud, "Sünən", 495

**11. Namazın fəziləti nədir?**

Namaz qəlbi və ruhu təmizləyir, insanı Allaha yaxınlaşdırır. Uca Allah buyurur:

إِنَّ ٱلَّذِينَ ءَامَنُواْ وَعَمِلُواْ ٱلصَّٰلِحَٰتِ وَأَقَامُواْ ٱلصَّلَوٰةَ وَءَاتَوُاْ ٱلزَّكَوٰةَ لَهُمْ أَجْرُهُمْ عِندَ رَبِّهِمْ وَلَا خَوْفٌ عَلَيْهِمْ وَلَا هُمْ يَحْزَنُونَ

**“Həqiqətən, iman gətirib saleh əməllər edən, namaz qılan və zəkat verənləri Rəbbinin yanında mükafatlar gözləyir. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər”** [65]

## ZƏKAT

**1. Zəkat nədir?**

Zəkat, şəriətlə müəyyən edilmiş şərtlər çərçivəsində bəlli bir miqdara çatan malın bir hissəsinin sədəqə verilməsidir.

**2. Zəkatın hökmü nədir?**

Zəkatın hökmü vacıbdir. Uca Allah buyurur:

وَأَقِيمُواْ ٱلصَّلَوٰةَ وَءَاتُواْ ٱلزَّكَوٰةَ

**“Namaz qılın, zəkat verin”**[66]

---

65 “Bəqərə” surəsi, 277

66 “Nur” surəsi, 56

**3. Zəkat vermək kimə vacibdir?**

Zəkat – müsəlman, azad, yetkinlik yaşına çatmış və nisab miqdarına malik olan şəxslərə vacibdir.

**4. Zəkatın verilməsi üçün nisab miqdarı nə qədərdir?**

Nisab – insanın əsas ehtiyaclarından artıq olan sərvətinin müəyyən həddə çatmasıdır. Qızıl üçün 85 qram, gümüş üçün 595 qram, nağd pul və ticarət malı üçün isə bu miqdara bərabər dəyər əsas götürülür.

**5. Zəkat nələrdən verilir?**

Aşağıda sadalananların qazancından zəkat verilir:

1. Qızıl və gümüş
2. Nağd pul
3. Mal-qara (dəvə, iribuynuzlu və xırdabuynuzlu heyvanlar)
4. Kənd təsərrüfatı məhsulları (dənli bitkilər[67] və meyvələr[68])
5. Ticarət malları

**6. Zəkatın miqdarı nə qədərdir?**

Əksər hallarda zəkatın miqdarı 2.5% (qızıl, gümüş, nağd pul və ticarət malları üçün) təşkil edir. Kənd təsərrüfatı məhsullarında isə bu nisbət 5% və ya 10% ola bilər.

---

[67] Arpa, buğda və bənzər bitkilər

[68] Xurma və s.

### 7. Zəkat kimlərə verilir?

Quranda zəkat verilən 8 insan kateqoriyası qeyd olunur[69]:

1. Fəqirlər (kasıblar)
2. Miskinlər (yoxsullar)[70]
3. Zəkat işçiləri[71]
4. Qəlbləri İslama isinişənlər, meyilli olanlar
5. Kölələr
6. Borcu olanlar
7. Allah yolunda cihad edənlər
8. Yolda qalmış müsafirlər

### 8. Ailəyə və qohumlara zəkat vermək olarmı?

Əgər ailə üzvləri və qohumlar zəkat almağa layiq kateqoriyadadırsa və zəkat verənin öhdəsində deyillərsə, onlara zəkat vermək olar.

### 9. Zəkatın verilmə vaxtı varmı?

Zəkat nisab miqdarına çatdıqdan sonra üzərindən bir hicri ili keçdikdə verilməlidir. Kənd təsərrüfatı məhsullarında isə məhsul yığıldıqda dərhal verilməlidir.

### 10. Zəkatı gecikdirmək olarmı?

Zəkatın vaxtında verilməsi vacibdir. Əgər gecikdirilərsə, günah olar, ancaq yenə də verilməlidir.

---

[69] "Tövbə"surəsi, 60
[70] Malı olan, lakin bu malı ona kifayət etməyən insan
[71] Zəkatı toplayıb zəkat veriləcək kimsələrə paylayanlar

**11. Zəkat borcdan əvvəl ödənilməlidirmi?**

İlk növbədə borc ödənilməli, daha sonra zəkat verilməlidir.

**12. Zəkat sadəcə kasıblara sədəqə vermək kimi bir şeydirmi?**

Xeyr, zəkat İslamın beş şərtindən biridir və fərz ibadətdir. Həmçinin zəkat müəyyən şərtlərə uyğun olaraq verilir. Sədəqə isə könüllü edilən yardımdır.

**13. Qeyri-müsəlmanlara zəkat vermək olarmı?**

Qeyri-müsəlmanlara zəkatın verilməsi icazəli deyil. İstisna olaraq, qəlblərinin İslama isinişdirilməsi ümid edilən və ya şərinin dəf edilməsi məqsədilə verilməsi icazəlidir[72].

**14. Əgər zəkat verən şəxs bilmədən zəkatı layiq olmayan birinə versə, nə etməlidir?**

Əgər bilmədən edilərsə, zəkat keçərli hesab olunur. Ancaq bilərəkdən layiq olmayan birinə verilibsə, yenidən düzgün insana verilməlidir.

---

[72] İslam alimlərinin əksəriyyətinin rəyinə əsasən zəkat yalnız müsəlmanlara verilir. Bu, Peyğəmbərin ﷺ “(Zəkat) onların zənginlərindən alınır və yoxsullarına (müsəlman yoxsullara) verilir” sözünə əsasəndir. Qəlbləri isinişdirilənlər, yəni, İslamı qəbul etmələri üçün, yaxud da müsəlmanlara verdiyi əziyyətlərin qarşısını almaq üçün zəkatdan pay verilən qeyri-müsəlmanlar istisnadır.

**15. Zəkat insanın malını azaldırmı?**

Xeyr, əksinə, zəkat malı bərəkətləndirir. Peyğəmbər ﷺ buyurmuşdur:

*“Sədəqə (zəkat) malı azaltmaz”*[73].

**16. Fitrə zəkatı nədir?**

Fitrə zəkatı Ramazan ayının sonuna bir və ya iki gün qalmış xurma, kişmiş və dənli bitkilərdən[74] verilən zəkat növüdür.

**17. Fitrə zəkatını vermək kimə vacibdir?**

Fitrə zəkatını hər bir müsəlman kişi və ya qadın, azad və ya qul, kiçik və ya böyüyün verməsi vacibdir.

**18. Fitrə zəkatının miqdarı nə qədər olmalıdır?**

Fitrə zəkatının miqdarı təxminən 2,5 kq xurma, kişmiş və dənli bitkilərdən olan qidalar olmalıdır.

## ORUC

**1. Oruc nədir?**

Niyyət edərək fəcrin[75] çıxışından (sübhdən) günəşin batışına qədər orucu pozan şeylərdən[76] çəkinməkdir.

---

[73] Muslim, “Zəkat”, 69

[74] Düyü, un, qarabaşaq, buğda, bulğur, lobya, mərci, noxud və bunlara bənzər dənli qidalardan fitrə zəkatı verilə bilər.

[75] Sübh vaxtı, dan yeri ağaranda

[76] Yemək, içmək, cinsi əlaqə, heyz

**2. Ramazan ayında oruc tutmağın hökmü nədir?**

Hökmü vacibdir. Uca Allah buyurur:

يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ كُتِبَ عَلَيْكُمُ ٱلصِّيَامُ كَمَا كُتِبَ عَلَى ٱلَّذِينَ مِن قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ

**“Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, bəlkə Allahdan qorxasınız”**[77]

**3. Orucun ərkanları və ya şərtləri nələrdir?**

- Fəcrin çıxışından günəşin batışına qədər orucu pozan şeylərdən çəkinmək
- Niyyət etmək

**4. Ramazan orucu kimə vacibdir?**

Hər bir həddi-büluğa çatmış, ağıl sahibi olan və oruc tutmağa qadir olan muqim[78] müsəlmana vacibdir.

**5. Xəstə ikən oruc tutmağın hökmü nədir?**

Bu haqda Uca Allah buyurur:

وَمَن كَانَ مَرِيضًا أَوْ عَلَىٰ سَفَرٍ فَعِدَّةٌ مِّنْ أَيَّامٍ أُخَرَ

**“Kim xəstə və ya səfərdə olarsa tutmadığı günlərin sayı qədər başqa günlərdə tutsun”**[79].

---

[77] “Bəqərə” surəsi, 183
[78] Yerli sakin, səfərdə olmayan
[79] “Bəqərə” surəsi, 185

Xəstəlik iki növ olur: sağalmaz və sağalan.

Sağalmaz xəstəlikdən əziyyət çəkən xəstələr oruc tutmadıqları hər gün üçün bir miskini və ya günlərin sayı qədər miskini bir yerə toplayaraq eyni gündə doyuzdurmalıdır.

Sağalan xəstəliyə düçar olmuş xəstələr isə sağaldıqdan sonra tutmadıqları günlərin əvəzini tutmalıdırlar.

**6. Səfərdə olanın orucunun hökmü nədir?**

Bu haqda Uca Allah buyurur:

وَمَن كَانَ مَرِيضًا أَوْ عَلَىٰ سَفَرٍ فَعِدَّةٌ مِّنْ أَيَّامٍ أُخَرَ

**"Kim xəstə və ya səfərdə olarsa, tutmadığı günlərin sayı qədər başqa günlərdə tutsun"**[80]

Səfərdə iki hal var:

- Səfərdə olana oruc tutmaq şiddətli məşəqqət yaradarsa, o zaman oruc tutmaq olmaz
- Səfərdə olana oruc tutmaq məşəqqət yaratmazsa, o zaman bu məsələ insanın öz istəyinə buraxılır, lakin oruc tutması daha əfzəldir

**7. Orucu nə batil edir?**

1. Bilərəkdən yemək və içmək

2. Bilərəkdən qusmaq

---

80 "Bəqərə" surəsi, 185

3. Heyz və nifas[81]

4. Məninin[82] xaric olması[83] (cinsi əlaqə və ya cinsi əlaqə xaricində)

**8. Ramazan ayı nə vaxt başlayır?**

Ramazanın ayının hilalı görüldükdə başlayır.

**9. Səhər yeməyi (sahur) vacibdirmi?**

Xeyr, lakin sünnədir, tövsiyə edilən əməldir. Sahurda bərəkət vardır.

**10. İftar necə açılmalıdır?**

İftarı xurma və ya su ilə açmaq sünnədir.

**11. Kim oruc tutmaqdan üzrlüdür?**

Səfərdə olanlar, xəstələr, hamilə və südverən analar üzrlü sayılırlar.

**12. Oruc tuta bilməyən nə etməlidir?**

Tutmadığı günləri sonradan qəza etməlidir. Əgər bu mümkün deyilsə, fidyə verməlidir.

**13. Qəza orucu necə tutulur?**

Qəza orucu Ramazandan sonra istənilən günlərdə adi qaydada tutulur.

**14. Təravih namazının hökmü vacibdirmi?**

---

[81] Doğuşdan sonra gələn qan

[82] Sperma

[83] Yuxuda ikən xaric olması orucu pozmur.

Xeyr, lakin təşviq edilən sünnədir.

**15. Oruc tutan insan siqaret çəkə bilərmi?**

Xeyr, çünki bu da orucu pozur. Siqaret çəkmək ümumiyyətlə haram və günah əməldir.

**16. Oruc insanın bədəni və ruhu üçün faydalıdırmı?**

Bəli, oruc həm mənəvi, həm də fiziki cəhətdən çox faydalıdır.

**17. Ramazan ayının son 10 günü niyə əhəmiyyətlidir?**

Çünki min aydan xeyirli olan və Quranın nazil olduğu Qədr gecəsi məhz bu günlərdədir.

**18. Qədr gecəsi nə vaxtdır?**

Qədr gecəsi Ramazan ayının son 10 gecəsindən birinə təsadüf edir. Tək günlərdə, xüsusilə də Ramazanın 27-ci gecəsi olma ehtimalı daha böyükdür.

## HƏCC

**1. Həcc nədir?**

Həcc – maddi və fiziki imkanı olan hər bir müsəlmanın ömründə bir dəfə müəyyən bir vaxtda Allaha ibadət etmək məqsədi ilə Məkkədə, təyin olunmuş müəyyən ibadətləri yerinə yetirməsidir.

**2. Həccin hökmü nədir?**

Hökmü vacibdir (fərzdir) və İslamın beş əsas şərtindən biridir. Uca Allah buyurur:

وَلِلَّهِ عَلَى ٱلنَّاسِ حِجُّ ٱلْبَيْتِ مَنِ ٱسْتَطَاعَ إِلَيْهِ سَبِيلًا ۚ وَمَن كَفَرَ فَإِنَّ ٱللَّهَ غَنِىٌّ عَنِ ٱلْعَٰلَمِينَ

**“Onun yoluna gücü çatan hər kəsin həccə gedib o evi ziyarət etməsi Allahın insanlar üzərindəki haqqıdır. Kim bunu inkar edərsə, (bilsin ki,) Allahın aləmlərə ehtiyacı yoxdur”** [84].

**3. İnsana ömründə neçə dəfə Həcc etmək vacibdir?**

Ömründə bir dəfə Həcc etmək hər bir insana vacibdir.

**4. Həccin vacib olması üçün şərtlər nədir?**

1. Müsəlman olmaq
2. Həddi-büluğa çatmaq
3. Ağıl sahibi olmaq
4. Azad olmaq
5. Həcc etmək iqtidarında olmaq[85]

**5. Həcc nə vaxt edilir?**

Həcc ibadəti yalnız Zilhiccə ayında yerinə yetirilir. Əsas günlər Zilhiccənin 8-13-cü günləridir.

---

[84] “Ali-İmran” surəsi, 97

[85] Sağlam olmaq və maddi imkana sahib olmaq

**6. Həccin ərkanları hansılardır?**

1. Ehram halında olmaq[86]
2. Ərəfatda[87] dayanmaq
3. Ziyarət təvafı etmək[88]
4. Səfa və Mərva arasında səy etmək[89]

**7. Həccdə ehram halında olmaq nə deməkdir?**

Ehram – Həcc və ya Ümrəyə başlamaq üçün niyyət etmək və müəyyən qadağalara riayət etməklə yanaşı, kişilər üçün iki ağ parçadan ibarət xüsusi geyimə bürünməkdir.

**8. Ehram halında ikən nə qadağandır?**

1. Saçları və ya tükləri qısaltmaq, yaxud qırxmaq, yaxud qoparmaq, yaxud yolmaq
2. Dırnaq kəsmək
3. Başı örtmək (kişilər üçün)
4. Tikişli geyim geyinmək (kişilər üçün)
5. Ətir vurmaq
6. Ov etmək
7. Nikah bağlamaq, yaxud nikah bağlatmaq
8. Cima[90] və ya şəhvət hissi ilə bir-birinə toxunmaq

---

[86] İzar və rida adlanan iki ağ parçaya bürünərək Həcc və ya Ümrə ziyarətinə niyyət etmək

[87] Ərəfat bölgəsi – Məkkə ilə Taif arasında təxminən 300 metr uzunluğunda qayalıq bir dağda yerləşən düzənlikdir

[88] "İfadə təvafı" da deyilir. Kəbənin ətrafında yeddi dəfə dövrə etməklə təvafı yerinə yetirməkdir

[89] Səfa və Mərva kiçik təpələrdir. Səy - Səfa təpəsindən başlayıb Mərva təpəsində bitirməklə ikisinin arasında yeddi dəfə gedib-gəlməkdir

[90] Cinsi əlaqə

**9. Həccin vacibləri neçədir və hansılardır?**

Həccin vacibləri yeddidir:

1. Ehram halına Miqat məntəqəsindən girmək
2. Günəş batana qədər Ərəfatda dayanmaq
3. Müzdəlifə çölündə gecələmək
4. Üç Cəmərət adlanan və şeytanı təmsil edən üç sütuna daş atmaq (təxminən fındıq boyda kiçik həcmli daşlarla)
5. Saçı qırxmaq, yaxud qısaltmaq
6. Mina gecələri Mina vadisində gecələmək
7. Vida təvafı etmək

**10. Həcc neçə cür olur?**

Həcc üç cür olur:

1. İfrad həcci – tək halda Həcc etmək
2. Qiran həcci – Ümrə və Həcci bir ehram halında yerinə yetirmək
3. Təməttu həcci – Ümrəni etdikdən sonra ehram halından çıxaraq, sonra yenidən ehram halına daxil olaraq Həcci yerinə yetirmək.

**11. Həcc zamanı Cəmərətdə şeytan daşlamaq ayini nə üçün edilir?**

Bu, İbrahim peyğəmbərin şeytana qarşı çıxmasının xatirəsinə edilən ibadətdir. Cəmərət adlı yerdə şeytanı təmsil edən üç sütuna daş atılır.

**12. Qadınlar üçün Həccin xüsusi şərtləri varmı?**

Qadınlar heyz və nifas halında Kəbəni təvaf etməməlidirlər. Həmçinin, qadınların ehram halında ikən üzünü örtməsi və əlcək geyinməsi qadağandır[91].

**13. Həcc edən insan üçün ən fəzilətli gün hansıdır?**

Bayramdan bir gün əvvələ təsadüf edən Ərəfa günü. Bu gün Allah Öz bəndələrinin günahlarını bağışlayır[92]. Bu gün günahların bağışlanması, atəşdən qurtuluş günü və Uca Allahın orada duran insanlarla fəxr etdiyi gündür.

**14. Həccdən sonra insanın günahları bağışlanırmı?**

Bəli, Peyğəmbər ﷺ buyurmuşdur:

*"Kim Allah üçün Həcc edər və günahlardan çəkinərsə, anasından doğulduğu gün kimi günahsız olar"* [93].

**15. Həcc etmək üçün maddi imkanı olan, lakin fiziki gücü olmayan şəxs nə etməlidir?**

Əgər həmin şəxs Həcci yerinə yetirə bilmirsə, öz yerinə başqa birini Həccə göndərə bilər[94].

---

[91] Buxari, "Həcc", 64
[92] Muslim, "Həcc", 1348
[93] Buxari, "Həcc", 1521
[94] Buxari, "Həcc", 1852

# SON

Faydalı və bərəkətli olan əməl yalnız Allahın rizası üçün və ixlasla yerinə yetirilən əməldir. Bu risalənin hazırlanmasında məqsədimiz insanlara sual-cavab əsasında İslam dini haqqında doğru və aydın məlumatları çatdırmaq, onların qəlbində dinə olan marağı artırmaq və haqqa doğru bir addım atmağa təşviq etməkdir.

Uca Allahdan istəyirəm ki, bu əməyimizi Öz dərgahında qəbul etsin və bu kiçik töhfəni hər kəs üçün faydalı, bərəkətli və hidayətə səbəb olan bir vasitə etsin. Qoy bu yazılanlar zülmətdə nur, qəlblərdə hüzur, qaranlıq düşüncələrə qarşı isə bir işıq olsun.

Unutmamalıyıq ki, bilik yalnız öyrənilməklə qalmamalı, eyni zamanda həyatımıza yön verməli və əmələ çevrilməlidir. Bu risaləni oxuyan hər bir kəsdən istəyimiz budur ki, burada qeyd olunan məlumatları sadəcə nəzəri olaraq oxumasınlar, əksinə, gündəlik həyatlarında tətbiq etsinlər və ətraflarına da gözəl dinimizin nurunu yaysınlar.

Allahdan istəyirəm ki, bu əməlimizi ixlaslı və bu risaləni isə insanlar üçün xeyirli, faydalı etsin. Bizləri elm əhli, əməl sahibi etsin və hidayət üzərində sabit qılsın. Allahın salavatı və salamı, Onun Rəsuluna, onun ailəsinə, səhabələrinə və onların yolunu gözəl şəkildə təqib edənlərin üzərinə olsun.

Amin!

# MÜNDƏRİCAT


ÖN SÖZ ........ 3

ƏN VACİB İNANCLAR ........ 5

PEYĞƏMBƏRİMİZ HAQQINDA ........ 20

FİQH BÖLÜMÜ ........ 26

- DƏSTƏMAZ ........ 26
- QÜSL ........ 29
- TƏYƏMMÜM ........ 30
- NAMAZ ........ 30
- ZƏKAT ........ 37
- ORUC ........ 41
- HƏCC ........ 45

SON ........ 50